G.T.HACIZADƏ
dissertant
e-mail: gunay92h@gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

:https://orcid.org/0009-0002-7247-9834

:10.62021/0026-0028.2024.2.200

UOT 372.8:811.111.

XARİCİ DİLDƏ ÜNSİYYƏT ÜÇÜN ƏLVERİŞLİ MÜHİTİ XARAKTERİZƏ EDƏN AMİLLƏRİN ANALİZİ

Xülasə. *Kommunikativ dil tədrisi hazırda bütün dünyanın təhsil müəssisələrində çox məşhurdur və ikinci dil tədrisinin əsas hissəsi kimi autentik ünsiyyətə önəm verilməkdədir. Lakin bəllidir ki, tələbələr ünsiyyət qurmaqda və fikirlərini ifadə etməkdə çətinlik çəkirlər. Qeyd olunan problemlərin həllində tələbələrə kömək etmək üçün uyğun üsullardan biri onlarda motivasiyanı artırmaq, gərginliyi azaltmaq və onları potensialından istifadəsi üçün düzgün istiqamətləndirməkdir. Aparılan tədqiqat tələbələrin davranışını müsbət yöndə dəyişmək, öyrənmə potensialını artırmaq və hədəf dildə ünsiyyət üçün dəstəkləyici mühit yaratmaq məqsədilə beyin və bədənin fəaliyyətini müsbət yöndə proqramlaşdırmağın mümkünlüyünü ifadə edir və tələbələrlə münasibəti düzgün qurmağın vacibliyinə toxunur. Tədqiqatın nəticəsi olaraq tələbələri ünsiyyətə motivasiya etmək üçün pedaqoji yanaşmalar və bəzi öyrətmə strategiyaları da təklif edilir.*

Açar sözlər: *ünsiyyət, ahəng qurma, neyrolinqvistik proqramlaşdırma, emosiyalar, öyrənmə mühiti*

Səmərəli tədris öyrənənlərlə yaxşı əlaqələrin qurulması və möhkəmlənməsini tələb edir. Tələbələr ürəyini onları başa düşüb, idarə edə bilən müəllimlərə açır. Tələbələri ilə əlaqə yarada bilən və effektiv ünsiyyət qura bilən bilən müəllimlər öyrənmə prosesini də uğurla aparır [15]. P.Silviaya (2017) görə, emosiyalar öyrənmə prosesinə təsir edən mühüm faktorlardan biridir [16]. Buna görə qorxu və gərginlik xarici dildə öyrənmə də daxil olmaqla tələblərin akademik fəaliyyətində stress və panik yaradacaqdır. Bu eyni zamanda öyrənilən materialların assimilyasiyasına mənfi təsir edəcək. Fərdin öyrənmə potensialı, hədəf dildə ünsiyyət qurmaq istəyi onun neyro-fizioloji vəziyyəti (məsələn, qorxu və sıxıntıdan çox maraq hissi), həmçinin özü və öyrənmə prosesi haqqında inancları (məsələn, öyrənmə potensialının olduğuna inanmaq, öyrənmənin əyləncəli və mənalı olduğu qənaətinə gəlmək), ətraf mühit və s. kimi amillər tərəfindən geniş mənada təsir görür [9; 18]. Bu vəziyyətin isə müəllim və tələbə ünsiyyətindən, seçilən fəaliyyət növlərindən asılı olaraq müsbət və ya mənfi yöndə dəyişmə ehtimalı mövcuddur [17; 19]. Bu məqamda təhdid və stresin öyrənmə prosesinə maneə yaratdığını unutmamaq gərəklidir [8].

Sinifdə müəllim-tələbə ünsiyyəti şüurlu həyat keçdiyi kimi şüuraltı səviyyədə də baş verir. Bu məqamda tələbələrin emosional ehtiyacları nəzərdən keçirilə bilər. Abraham Maslovun (1970) ehtiyaclar nəzəriyyəsinə diqqət etsək, görərik ki, insanların motivasiyası xarici faktorlardan başqa şəxsin daxilindəki ehtiyaclara bağlıdır. O bu ehtiyacları aşağıdakı iyeraxiyada qruplaşdırmışdır [10]:

Şəkil. *A.Maslovun ehtiyaclar iyerarxiyası*



Mənbə: Maslov (1970)

Maslov (1970) bu ehtiyacları piramida kimi təsvir edərək bir pillədəki ehtiyacı qarşılamadan digər bir pilləyə keçməyin mümkünsüz olduğunu vurğulamışdır. Məsələn, fiziki təhlükəsizlik və emosional rahatlıq hissi olmadan biz aydın düşünə və öyrənə bilmərik. Bu baxımdan neyrolinqvistik proqramlaşdırma (NLP) tədrisdə innovativ üsullardan biri hesab edilə bilər. NLP tələbələrin özünü tanımasına kömək edir, onlarda pozitiv emosiyalar yarada bilir və daha arxayın ünsiyyət qurmasına səbəb olur. NLP-də ahəng qurma (creating rapport) sağlam sinif mühitinin əsasında duran bir texnikadır [7; 13]. Hər bir tələbəylə eyni zamanda uyğunlaşmaq, anlaşmaq çətin olduğu üçün ən azından onlar arasında ahəng qura bilərik. Bunun üçün onlarla birgə mahnılar oxuya bilərik. Yaxud tələbələrlə yaşana biləcək problemlərin öncədən qarşısını almaq üçün hərdən ruh hallarını bir sözlə ifadə etmələrini istəyə bilərik. Bu həmçinin tələbələrin marağına uyğun olaraq mövzu müzakirəsi, tələbənin hər səhvini düzəltməyə çalışmamağı da nəzərdə tutur [12]. Müqavimət və dirənmə hissi ahəng qurmada əksikliyin göstəricisidir. Bu hal özünü qarşılıqlı inam və əlaqə olmadıqda göstərir. Müəllimlər sinifə əsasən çalışmalar, strategiyalar və bacarıqlar tərəfdən yanaşırlar. Uşaqlar isə daha çox fundamental səviyyədə – şəxsiyyət səviyyəsində fəaliyyət göstərirlər. Onlar daha çox sizin kim olduğunuz və sizə nəyin vacib olduğu ilə maraqlanır. Ahəng qurmanı inkişaf etdirmək sizə bu səviyyədə onlarla daha yaxşı ünsiyyət qurmağa, düşüncə və davranışınızı dəyişdirməyə kömək edəcəkdir. Yenidən çərçivələmə üsulu da dildən düzgün istifadəni və sözlərin dəyişdirilməsi ilə düşüncənin də dəyişdirilməsini nəzərdə tutur. Bu üsuldan istifadə şəxslərin mənfi inanclarını dəyişdirmək, onları həvəsləndirmək üçün bir vasitə kimi qiymətləndirilir [2; 13]. Məsələn, "səhv" sözü öyrəndiyimiz təcrübə, "son" sözünü isə yeni başlanğıc kimi adlandırdıqda bəzi məsələlərə münasibətimiz də dəyişə bilər.

Craft (2001) neyrolinqvistik proqramlaşdırma (NLP) və təhsil arasında əlaqəni araşdıraraq bunun düşünmə prosesində və ünsiyyətdə müsbət rolunu qeyd etmişdir [6]. Aparılan tədqiqatlarda NLP-nin istifadə olunduğu sinif mühitində tələbə və müəllimlərin daha rahat hiss etdiyi, öyrənənlərin öz fikirlərini daha rahat ifadə etməsi, həvəsli və özgüvənli olması məlum olmuşdur [3; 20].

Sinifdə fərqli maraqları olan və fərqli templərdə işləyən tələbələrə dərs keçilir. Bəs bu şəraitdə dərsi düzgün planlaşdırmaq və onların ehtiyaclarını qarşılaya bilmək necə mümkündür? Bu məqsədlə aşağıdakılar tövsiyə olunur [4; 5; 7; 13; 14]:

- VAK *(visual, kinesthetic, auditory)* modeli barədə məlumatlı olmaq;
- Vahid metodun tətbiqindənsə dil tədrisinə yanaşmada dəyişkənlik göstərmək;
- Çalışmaların tərtibi zamanı tələbələrin fikirlərindən, şəxsi təcrübələrindən istifadə etmək;
- Bəzən tapşırıqları qiymətləndirmədən öncə tələbələrdən öz işlərinə qiymət qoymasını istəmək;
- Hərdənbir olaraq eyni bir mövzu üçün nəzərdə tutulan tapşırıqları asan, orta və qəliz olaraq tərtib etmək;
- Təlim prosesinin daha maraqlı keçməsi üçün tələbələri bir-biriləri üçün müxtəlif tapşırıqlar, fəaliyyət növləri təşkil etməyə həvəsləndirmək;
- Tələbələrə bəli yaxud xeyr cavablarına uyğun gələn suallardan daha çox düşüncələrini hərəkətə gətirəcək suallar ünvanlamaq;
- Tələbələrə sinifdə aktiv olması, tapşırıqların icrası zamanı hərəkət etməsi üçün şərait yaratmaq;
- Tələbələri konstruktiv rəylə təmin etmək;
- Tapşırıqları tərtib edərkən maraq hissi oyatmağa çalışmaq. Maraq hissi daxili motivasiyadan gəlir və tələbənin yazması, oxuması, dinləməsi yaxud danışması üçün motiv yaratmağı nəzərdə tutur.

Beynimiz sosial məşğuliyyəti, ünsiyyəti sevir və buna yaxşı reaksiya göstərir. Bu baxımdan kooperativ öyrənmə, oyunlar, müzakirə və s. xarici dildə öyrənmə prosesini inkişaf etdirir [5; 11; 21]. Bununla yanaşı tələbələri monoloji nitqə həvəsləndirməklə də onlara hisslərini ifadə etməsinə şərait yaratmaq, tənqidi düşüncəsini, yaradıcılığını və xarici dildə danışıq bacarığını inkişaf etdirmək mümkündür [1]. Lakin dil dərslərində çox zaman bacarıq qazandırmaqdan daha çox tələbələrin sözlərlə, qrammatika ilə yükləndiyini müşahidə edirik. Məsələn, ingilis dilində danışmaq bir bacarıq kimi qiymətləndirilə bilməz. Bu o zaman bacarığa çevrilir ki, dili ünsiyyət vasitəsi kimi istifadə edə biləsən. Necə ki, fırçadan istifadə etməyimiz bir rəsm əsəri yaratmadığımız müddətcə bir bacarıq sayıla bilməz.

Tədris prosesinin əsasən kollektiv işi dəstəkləməsi və tələbə yönümlü olması məqsədəuyğundur. Bu prosesdə tələbələrin məqsəd, bacarıq və şəxsi təcrübəsinə yönələn tapşırıqların istifadəsi onlarda güvən və həvəs yaradacaqdır. Bu isə öz növbəsində tələbələrin emosional zəka ünsürlərini, eyni zamanda duyğu üzvlərini hərəkətə gətirirərək diqqətini, qavrama prosesini optimallaşdıracaq və beləcə onlarda xarici dildə ünsiyyətə həvəs yaratmaq mümkün olacaqdır. Bu nöqteyi-nəzərdən aşağıdakı fəaliyyət növləri və texnikalar fayda verə bilər:

- Yönləndirilmiş xəyalqurma (Guided Imagery). Tələbələr danışacağı mövzunu müəllimin köməyi ilə realda yaşayırmış kimi öncə təxəyyülündə canlandırır, yaxud vizuallaşdırır, sonra isə danışmağa başlayır.
- Zehin xəritəsi (Mind mapping). Oxu prosesində tələbələr hekayəni, yaxud mətndəki hadisələri, xarakterləri zehin xəritəsi ilə vizuallaştırır. Bu üsul xarici dildəki sözlərin yaxşı mənimsənilməsi və yazı prosesində də istifadə edilə bilər.
- Modelləşdirmə (Modelling). Tələbələrin xarici dildə kommunikasiyanın müxtəlif elementlərini analiz etməsi üçün hədəf dil daşıyıcısını dinləməsi və imitasiyası nəzərdə tutulur.
- Oxu dairəsi (Reading/Literature Circle). Mətn yaxud hekayənin yaxşı mənimsənilməsi üçün tələbələrə oxu materialı üzrə rollar *(discussion facilitator, summariser, vocabulary enricher)* tapşırılır.
- VAK *(visual, kinesthetic, audial)* modelindən istifadə. Multisensor yanaşmanın, sensor təcrübənin tətbiqi ilə öyrənmə və qavrama həyata keçir. Tələbələrə müxtəlif hiss üzvlərindən istifadə ilə fikirlərini ifadə etməsinə, tapşırığı həll etməsinə şərait yaradılır.
- Hədəf və bacarıqlara yönəlmə. Müəllim tələbələri bacarıqları barəsində düşündürməyə və danışdırmağa həvəsləndirir, yaxud da tələbələrə hədəfləri barədə düşünməyə şərait yaradır, sanki arzularına çatmış kimi yaşadıqlarını, hiss etdiklərini qeyd etməsini istəyir.
- Qrup müzakirəsi və beyin fırtınası. Dinləmə, oxu, yaxud yazı prosesinə başlamazdan öncə tələbələr mövzu ilə bağlı düşünür, müzakirə aparır, fikirlərini bir-birilərilə bölüşürlər.

Həmçinin problemli situasiya yaradaraq tələbələrə müəyyən rollar vermək və onları problemin ortaq həllini tapmağa çağırmaq mümkündür.

Nəticə. Xarici dildə kommunikasiya üçün dəstəkləyici mühit müəllim-tələbə münasibətindən və ünsiyyətindən çox aslıdır. Tələbə müstəqilliyinin dəstəkləndiyi, tələbələrin yaradıcılığının və tənqidi düşüncəsinin ifadəsinə şərait yaradılan stressiz mühitdə xarici dildə ünsiyyət mənalı və rahat olacaqdır. Tələbənin beyin fəaliyyətini stimullaşdırmaq da hədəf dildə kommunikasiyaya təsir edir. Bu məqsədlə tələbələri düşündürəcək, onlara mənalı gələn tapşırıqlar vermək, onların hiss edərək öyrənməsinə və bir-birilərindən öyrənməsinə şərait yaratmaq lazımdır ki, bununla onlar öyrənmə prosesinə daha həvəslə yanaşacaq, hədəf dildə danışmağa istəyi və cəhdləri artacaq və müstəqil formada öyrənməyin üsullarını da kəşf etmiş olacaqlar.

Problemin aktuallığı. Tələbələrin xarici dildə, xüsusilə ingilis dilində kommunikasiya qurmaq bacarığı dövrün tələblərindən birinə çevrilib. Tələbələrin xarici dildə kommunikasiya bacarığının inkişafı üçün linqvistik biliklərin aşılanması kifayət etmir və koqnitiv proseslərin incələnməsinə ehtiyac var. Həmçinin tələbələrin öyrənmədəki motivlərinin, ehtiyaclarının, bacarıqlarının, inanclarının, ətraf mühitin və s. kimi amillərin diqqətdə saxlanması effektiv dil tədrisinə səbəb ola bilər.

Problemin elmi yeniliyi. Məqalədə xarici dil tədrisində neyrolinqvistik proqramlaşdırmanın imkanlarından istifadə qeyd olunub. Nevroloji proseslər, dildən istifadə və davranışın bir-birilə əlaqəsi tədqiq edilib.

Problemin praktik əhəmiyyəti. Xarici dil dərslərində müəllimlərin tapşırıqları tərtib edərkən istifadə edə biləcəyi yanaşmalar və tələbələri hədəf dildə ünsiyyətə həvəsləndirən bəzi fəaliyyət növləri təqdim edilib.

Ədəbiyyat

1. Səfiyev, Ə. İngilis monoloji nitqinin kommunikativ tədrisinin əsasları / Ə.Səfiyev. – Bakı: Elm, − 2019, − 176 s.
2. Bandler, R. Frogs into Princes / R.Bandler, J.Grinder. − Red, − 1977. − 194 p.
3. Carey, J. Neuro-Linguistic Programming and Learning: Teacher Case Studies on the Impact of NLP in Education / R.Churches, G.Hutchinson, , J.Jones, P.Tosey // Online Submission, − 2010.
4. Christison, M.A. Cooperative learning in the EFL classroom. English Teaching Forum, − 1990, 28 (4), − p.6-9.
5. Churches, R. NLP for Teachers: How to be a highly effective teacher / R.Churches, R.Terry. − Crown House Publishing, − 2007. − 240 p.
6. Craft, A. Neuro-linguistic programming and learning theory // The curriculum journal, − 2001, 12(1), − p.125-136. https://doi.org/10.1080/09585170122455
7. Cullen B. Explorations in NLP& Language teaching/ Cullen B., Deacon B., [et al.] – Standing in Spirit Publications, − 2015. − 117 p.
8. Dhority, L. and Jensen,E. (1998) Joyful Fluency: Brain-Compatible Second Language Acquisition. − Corwin; 1st edition, − 1998. − 168 p.
9. Dilts, R. Logical level alignment- NLP Comprehensive, − 2014. http://www.nlpu.com/Articles/LevelsAlignment.htm
10. Maslow, A.H. Motivation and Personality (2nd ed.) / A.H.Maslow. − New York: Harper & Row, − 1970. − 369 p.
11. Netten, J., Germain, C.A new paradigm for the learning of a second or foreign language: The neurolinguistic approach. Neuroeducation, − 2012, 1(1), − p.85-114. https://doi.org/10.24046/neuroed.20120101.85
12. Pishghadam, R., Shayesteh, S. Neuro-linguistic Programming (NLP) for Language Teachers: Revalidation of an NLP Scale// Theory & Practice in Language Studies, − 2014, 4(10), − p.2096-2104. doi:10.4304/tpls.4.10.2096-2104
13. Ready, R. & Burton, K. Neuro-Linguistic Programming for Dummies®, 2nd Edition. John Wiley & Sons Ltd, England, − 2010. − 416 p.

14. Revell, J. Handing over: NLP-Based Activities for Language Learning / J.Revell, S.Norman. − England: Saffire Press, − 1999. − 144 p.
15. Safiyev, A. Methods of teaching English in Azerbaijan. Second Edition / A.Safiyev, F.Karimov. – Baku: Azerbaijan University of Languages, − 2023.
16. Silvia, P.J. Curiosity. In: O'Keefe P., Harackiewicz J. (eds) The Science of Interest// Springer, − 2017, − p. 97-107. Cham. https://doi.org/10.1007/978-3-319-55509-6_5
17. Thornbury, S. The unbearable lightness of EFL// ELT Journal, − 2001, 55(4), − p.391-402. DOI:10.1093/elt/55.4.391
18. Tosey, P., Mathison, J., & Michelli, D. Mapping Transformative Learning: the potential of neuro-linguistic programming// Journal of Transformative Education, −2005, 3(2), − p.140-167. DOI:10.1177/1541344604270233
19. Tosey.P, Mathison.J. Neuro-linguistic programming: its potential for learning and teaching in formal education// European Conference on Educational Research, – University of Hamburg, − 17- 20 September, − 2003.
20. West-Burnham, J. Creating and sustaining a culture of creativity. Learning Matters. − 2010, 15(1), − p.24-26. https://research.stmarys.ac.uk/id/eprint/368
21. Yule, G. The study of language. Cambridge University Press, − 2022. − 320 p.

G.T.Hajizada

Analysis of Factors Characterizing a Favorable Environment for Foreign Language Communication

Summary

Communicative language teaching is now very popular in educational institutions around the world, and authentic communication is emphasized as a key part of second language teaching. However, students have difficulty communicating and expressing their ideas. One of the appropriate ways to help students deal with the mentioned problems is to increase their motivation, reduce tension and guide them properly to use their potential. The conducted research proves the possibility of programming the activity of the brain and body and explains the importance of establishing a good rapport with students, which can positively change their behaviour, increase their learning potential, and create a supportive environment for communication in the target language. As a result of the research, pedagogical approaches and some teaching strategies are proposed to motivate students to communicate.

Key words: *communication, building rapport, neurolinguistic programming, emotions, learning environment*

Г.Т.Гаджизаде

Анализ факторов, характеристирующих благоприятную среду для иноязычного общения

Резюме

Коммуникативное обучение языку сейчас очень популярно в учебных заведениях по всему миру, а подлинное общение считается ключевой частью обучения второму языку. Однако учащимся трудно общаться и выражать свои идеи. Один из подходящих способов помочь студентам справиться с упомянутыми проблемами – повысить их мотивацию, снизить напряжение и направить их к использованию своего потенциала. Проведенное исследование доказывает возможность программирования деятельности мозга и тела и объясняет важность установления хорошего контакта со студентами, что может положительно изменить их поведение, повысить их учебный потенциал и создать благоприятную среду для общения на изучаемом языке. В результате исследования предложены педагогические подходы и некоторые стратегии обучения, позволяющие мотивировать студентов к общению.

Ключевые слова: *общение, установление взаимопонимания, нейролингвистическое программирование, эмоции, среда обучения*

Rəyçi: ped.f.d., dos. V.S.Bağırova

Redaksiyaya daxil olub: 22.04.2024